# SOSİAL İSLAHATLARIN DƏRİNLƏŞDİRİLMƏSİ DÖVLƏTİMİZİN BAŞLICA PRİORİTETLƏRİ SIRASINDADIR

**Güclü iqtisadiyyat, sosial siyasət, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qanunun aliliyinin bərqərar olunması, demokratiyanın inkişafı, siyasi islahatların aparılması və dərinləşdirilməsi - bütün bunlar Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün vacib amillərdir. Onların hamısı Azərbaycanda vardır və bütün istiqamətlərdə islahatlar aparılır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

## *Cənab Prezidentin imzaladığı və əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial müdafiəsinin daha da gücləndirilməsinə yönəlmiş son sərəncamlar bunun əyani təsdiqidir*

Son illər ərzində Azərbaycanın inkişaf templərinin qorunub saxlanılması, qlobal və strateji xarakter daşıyan iqtisadi-siyasi islahatların əhatə dairəsinin genişləndirilməsi, ölkəmizdə dayanıqlı və sabit makroiqtisadi vəziyyətin qorunub saxlanılması əhalinin rifahının yaxşılaşdırılması istiqamətində böyük uğurların əldə olunmasını şərtləndirmişdir. Bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən modern sosial siyasətinin qloballığı və əhəmiyyəti onun düşünülmüş, konkret hədeflərə yönəlmiş mövcud istiqamətlərinin olmasından ibarətdir. Burada sosial müavinətlər sisteminin təkmilləşdirilməsi, sığorta sisteminin tətbiqinin genişləndirilməsi, regional idarəetməyə xüsusi önəm verilməsi, istiqamət məqsədli Dövlət proqramlarının həyata keçirilməsi, müəyyən sosial çətinliklər yarada biləcək səbəblərin aşkarlanması və aradan qaldırılması, cəmiyyətin hərtərəfli sosial müdafiəsinin təmin edilməsi, insanlarda xeyriyyəçilik ruhunun tərbiyə olunması kimi istiqamətləri xüsusilə qeyd etmək lazımdır.

Şübhəsiz, sosial sahədə əldə olunmuş nailiyyətlərdə ölkəmizin inkişafının təməl daşı olan neft strategiyasının böyük rolu vardır, ancaq son zamanlar bu sahədə qazandığımız uğurların böyük bir hissəsi məhz qeyri-neft sektorunun inkişafı ilə bağlıdır.

Təsadüfi deyil ki, bir çox nüfuzlu beynəlxalq institutlar tərəfindən Azərbaycanda iqtisadi və sosial sahələrdə aparılan islahatlar çox yüksək qiymətləndirilir, Azərbaycanın kredit reytinqləri sabit şəkildə artır: diqqət edin, istər 2008-2009-cu və 2015-2016-cı, istərsə də dünyanı cənginə almış COVID-19 koronavirus pandemiyasının yaratdığı böhranlı 2020-ci ildə inkişaf etmiş ölkələrin kredit reytinqləri azaldığı bir vaxtda, Azərbaycanın kredit reytinqləri əksinə, bəzi hallarda yüksəlməyə davam etdi. Bütün MDB məkanında iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə Azərbaycan ön sıralardadır. Bu da təbiidir, çünki Azərbaycanın əldə etdiyi uğurların təməlində əsasını ulu öndər Heydər Əliyevin qoyduğu, dövlət başçısı cənab İlham Əliyevin böyük uzaqgörənliklə inkişaf etdirdiyi düşünülmüş strateji siyasi kurs, dərin və hərtərəfli islahatlar, vaxtında atılmış düzgün addımlar və nəhayət, müstəqil siyasət dayanır. Bu gün əminliklə deyə bilərik ki, uğurlarımızın təməlində enerji amili artıq əsas rol oynamır.

**(davamı 8-ci səhifədə)**

**Respublika.- 22 dekabr.- 2021- ci il.- S. 1.**

# SOSİAL İSLAHATLARIN DƏRİNLƏŞDİRİLMƏSİ DÖVLƏTİMİZİN BAŞLICA PRİORİTETLƏRİ SIRASINDADIR

(əvvəli 1-ci səhifədə)

Məlumdur ki, son illərdə dövlətimiz ölkənin enerji amilindən asılılığını azaltmaq istiqamətində çox böyük işlər həyata keçirmişdir. Ancaq bununla yanaşı, şübhə etmirik ki, bu gün də, gələcəkdə də malik olduğumuz böyük neft-qaz potensialı, ölkəmizin etibarlı tərəfdaş statusuna malik olması, Avropanın enerji təhlükəsizliyində xüsusi rol oynaması Azərbaycanın istər siyasi, istərsə də iqtisadi maraqlarını təmin edəcək.

Son illər ərzində sosial sahədə çox yaddaqalan hadisələr baş vermişdir. Bu hadisələr, eləcə də sosial sferasının inkişafının təmin olunmasına istiqamətləndirilmiş addımlar bir daha bunu göstərir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət məhz sosialyönümlüdür. Ölkəmiz bazar iqtisadiyyatı prinsiplərinə sadiqdir, lakin, bununla yanaşı, əhalinin bütün, xüsusilə də aztəminatlı təbəqəsini sosial cəhətdən daha da yaxşı müdafiə etmək üçün konkret xarakter daşıyan proqramlar həyata keçirir. Təkcə 2018-ci ildən bu günə qədər sosial məsələlərin həlli işində önəmli addımlar atılmışdır. Burda həm pensiyaların miqdarının qaldırılması, həm yaşayış minimum məbləğinin yüksəldilməsi, işsizliyə və əlilliyə görə verilən müavinətlərin səviyyəsinin xeyli artması və bu kimi digər mühüm, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəlmiş tədbirləri qeyd edə bilərik.

Əməkhaqları, təqaüdlər, müavinətlər, digər sosial ödəmələr və pensiyaların artırılması əhali tərəfindən razılıqla qarşılanır və bu, olduqca mühüm məsələdir.

Əlbəttə, əhalinin sosial müdafiəsi sahəsində görülən işlər gələcəkdə də davam etdiriləcəkdir, çünki bu işləri birdən həyata keçirmək mümkün deyildir, sosial sahə həddən artıq həssasdır, o, radikal dəyişikliklərə dayanıqlı təsir göstərməyə bilər. Hazırda pensiya qanunvericiliyinin daha da təkmilləşdirilməsi, sığorta münasibətlərində - könüllü sosial sığorta, tibbi sığorta, istehsalat qəzası və peşə xəstəliklərindən sığorta sahəsində görülən işlər, sosial siyasətin ən vacib istiqamətlərindən olan əhalinin sağlamlığının qorunmasının daha güclü mexanizmlərinin təmin edilməsi istiqamətində islahatlar uğurla davam etdirilir. Həyata keçirilən sosialyönümlü siyasətin nəticələri göz qabağındadır. Son 18 ildə Azərbaycanda yüzlərlə tibb müəssisəsində əsaslı təmir-tikinti işləri aparılıb. 100-ə yaxın yeni tibb ocaqları istifadəyə verilib. Diqqətçəkən məqam, həmçinin bundan ibarətdir ki, yeni tikilən və əsaslı yenidənqurma işlərindən sonra əhalinin xidmətinə verilən klinikalar çoxprofillidir və ən müasir səviyyədə inşa edilib, ən qabaqcıl tibbi avadanlıqlarla təchiz olunub. Əlamətdardır ki, son on ildə istifadəyə verilmiş 750-dən artıq səhiyyə müəssisəsinin 70 faizindən çoxu regionların payına düşür. İndi Azərbaycanın bütün bölgələrində müasir, yaraşıqlı tibb mərkəzləri fəaliyyət göstərir. Onların hər birində keyfiyyətli tibbi xidmət üçün hər cür şərait yaradılıb, tələb olunan təchizat yüksək səviyyədə təmin olunur. Regionların sosial-iqtisadi inkişafında əldə olunan nailiyyətlərin əsasında qəbul edilən müvafiq Dövlət proqramlarının əhəmiyyəti danılmazdır. Əhali bunu real həyatda əyani görür.

Dövlətimizin sosial siyasətinin prioritetlərindən biri əlillərin həyat şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsidir. Son illərdə dövlətin sosial siyasətinin mərkəzində fiziki imkanları məhdud olan insanların mənzil-məişət şəraitinin və sosial təminatının yaxşılaşdırılması məsələləri durmuşdur ki, bu məqsədlərə dövlət büdcəsindən konkret layihələrin icrasına xeyli vəsait yönəldilmişdir. Əlillərə yeni evlərin, avtomobillərin verilməsi, onların həm mənzil şəraitinin yaxşılaşdırılmasına, həm də gediş-gəlişlərinin asanlaşdırılmasına böyük kömək oldu. Eyni zamanda, şəhid ailələrinin və Qarabağ qazilərimizin də sosial müdafiəsinin gücləndirilməsi işləri davam etdirilmiş, onlara da mənzil və avtomobillərin verilməsi təmin olunmuş, xeyli sayda fərdi ev tikilmişdir.

**_Cənab Prezidentin imzaladığı və əhalinin rifah halının yaxşılaşdırılmasına, sosial müdafiəsinin daha da gücləndirilməsinə yönəlmiş son sərəncamlar bunun əyani təsdiqidir_**

Sirr deyil ki, hər bir ölkənin sosial-iqtisadi inkişafı vətəndaşların nə ilə məşğul olmalarından, ictimai və şəxsi mənafe baxımından onların əməyinin necə təşkil edilməsindən və malik olduqları əmək qabiliyyətindən sosial-iqtisadi cəhətdən nə dərəcədə səmərəli istifadə olunmasından çox asılıdır.

Bu baxımdan da Azərbaycanda əhalinin səmərəli məşğulluğunun təmin olunması dövlət səviyyəsində həll edilməsi zəruri olan ən mühüm sosial-iqtisadi və həm də çox mühüm siyasi vəzifələrdən biridir. Təsadüfi deyil ki, hazırda respublikamızda səmərəli məşğulluq siyasəti tədbirlərinin həyata keçirilməsinə böyük önəm verilir. Çünki bazar münasibətləri şəraitində ölkəmizdə iqtisadi, sosial və siyasi şərtlərə uyğun gələn səmərəli məşğulluq, fəal əmək bazarı siyasəti və əhalinin mühafizəsi sistemi formalaşdırılsa da, görüləsi işlər çoxdur. Bu istiqamətdə dövlət siyasətinin həyata keçirilməsi nəticəsində son illər ərzində özəl sektorun məşğulluqda payı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 85 faizi ötmüşdür.

Göründüyü kimi, respublikamızda həyata keçirilən sosial siyasətin uğurlu olması, dövlət başçısının son sərəncamları əhalinin rifah halının daim yaxşılaşdırılmasında xüsusi əhəmiyyət kəsb edir. Ancaq cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sosial siyasət yalnız bu yöndə dəyərləndirilməməlidir. Azərbaycanda yeni iş yerlərinin yaradılması üçün nəzərdə tutulan vəsaitlərdən tam surətdə istifadə olunmasının, xərclərin quruluşunda isə yeni iş yerlərinin saxlanılması və əlavə iş yerlərinin yaradılmasının, təşkilatlara xüsusi işlərinə görə subsidiyaların verilməsinin, peşə hazırlığına, yenidən hazırlığa və peşə yönümünə sərf edilən vəsaitlərin xüsusi çəkisinin üstünlük təşkil etməsinin rolu danılmazdır və bütün bunlar sosial siyasətin vacib, ayrılmaz hissəsidir, bütövlükdə sosial sferanın dayanıqlığını şərtləndirir. Həmçinin bu, ölkəmizdə əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və onun quruluşunun təkmilləşdirilməsinə xeyli köməklik göstərir. Nəticədə insanlar gələcəyindən əmindir, sabahkı günə böyük ümidlər bəsləyir və qüdrətli Azərbaycan dövlətinin müstəqilliyinin daha da gücləndirilməsi, iqtisadi potensialının daha da inkişaf etdirilməsi üçün var qüvvə ilə çalışır, öz töhfələrini verirlər.

**Emin QASIMOV,**
**"Respublika".**